# Bölgələrdə 20 Yanvar şəhidlərinin xatirəsi yad edilib

## Lənkəran






Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizənin simvoluna çevrilmiş 20 Yanvar faciəsindən 35 il ötdü. 35 il öncə Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermiş, ölkəmizin qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazmışlar.

Yanvarın 20-də Lənkəran Şəhər İcra Hakimiyyətində 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüş keçirilmişdir. ŞİH-in başçısı Taleh Qaraşov bildirib ki, Ulu Öndərin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət verilib və Prezident İlham Əliyevin sərəncamları ilə 20 Yanvar şəhid ailələrinə və əlillərinə dövlət qayğısı artırılıb, onların maddi-məişət şəraiti, iş və mənzillə təminatı diqqətdə saxlanılıb.

Görüş sonrası Lənkərandan olan Milli qəhrəmanların abidələri, həmçinin Şəhidlər kompleksi ziyarət olunub. Tədbir Lənkəran Dövlət Dram Teatrında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan bədii-kompozisiya ilə davam edib.

## Şirvan



20 Yanvar faciəsinin 35-ci ildönümü münasibəti ilə şəhərin rəhbərliyi, hüquq-mühafizə orqanlarının, regional təşkilatların, idarə və müəssisələrin nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmişlər.

Sonra Şəhidlər xiyabanı, Birinci Qarabağ müharibəsində itkin düşənlərin xatirəsinə ucaldılan və "Əbədi məşəl" abidələri, Qarabağ müharibəsi şəhidlərinin məzarları ziyarət edilmiş, önünə tər güllər düzülərək ruhlarına dualar oxunmuşdur.

"Şəhid Anası" memorial abidə kompleksinin qarşısında davam edən tədbirdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Azərbaycanın suverenliyi, azadlığı uğrunda mübarizəyə qalxmış dinc sakinlərə qarşı sovet qoşunlarının törətdiyi cinayətlərdən danışmış, 20 Yanvar hadisələrinin qəhrəmanlıq tariximizdə istiqlaliyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunduğunu qeyd etmişdir.

20 Yanvar hadisələri ilə əlaqədar sovet hakimiyyətinin bu qanlı əməlinə ilk rəsmi etirazın məhz Ulu Öndər Heydər Əliyev tərəfindən səsləndirildiyini və Azərbaycan xalqının başına gətirilən bu faciəyə ilk siyasi-hüquqi qiymətin də Ümummilli Lider tərəfindən verildiyi diqqətə çatdırılmışdır

Tədbirdən sonra Şirvanın hüquq-mühafizə orqanlarının rəhbərləri el qəbiristanlığında şəhidlərin yenilənmiş məzarüstü abidələrini, Birinci Qarabağ müharibəsində şəhid olan Milli qəhrəmanlar Nofəl Quliyevin, Tahir Bağırovun, Rəfael Həbibovun büstlərini ziyarət edərək xatirələrini yad etmişlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 22 yanvar (№ 13).- S.11.